Scientific News of Academy of Azerbaijan State Academy of Physical Education and Sport
SPORT SCIENCE JOURNAL
Volume 1 № 4 2019

# İDMANÇI GƏNCLƏRİN MÜTALİƏYƏ MARAĞIN ARTIRILMASINDA KİTABXANANIN ROLU

(ADBTİA-nın kitabxanasının təcrübəsi əsasında)

*p.e.d., prof. Dilqəm Quliyev*
*mr.quliyev.d@mail.ru*
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib: 1 noyabr 2019
Dərc olunub: 5 dekabr 2019
© 2019 ADBTİA. Bütün hüquqlar qorunur

**Annotasiya:** Məqalədə Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri, kitabxana işinin və kitabxana sisteminin ümumi əsasları, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələbləri, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsipləri, idmançı gənclərin mütaliyə marağının artırılmasında kitabxananın rolu işıqlandırılmışdır. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında kitabxana işinin tənzimlənməsi, onun fəaliyyətinin müasir tələblər səviyyəsinə çatdırılması, akademiyada yenidənqurma və təhsilin keyfiyyətinin yüksəldilməsi istiqaməti, yeni tədris laboratoriyaları, elektron kitabxana, tədris proqramlarının təkmilləşdirilməsi, akademiyanın kitabxanası müasir kitabxanaların tələblərinə cavab verən mədəni, ünsiyyət və informasiya-məlumat vermə, müxtəlif tədbirlərin və sərgilərin keçirilməsi, təhsil prosesinin keyfiyyətinin artırılması, eləcə də rəqəmsal resursların istifadəsinin genişləndirilməsi çərçivəsində tam funksional elektron kitabxana haqqında və başqa problemlər öz həllinitapmışdır.

**Açar sözlər:** Kitabxana, informasiya-kommunikasiya texnologiyaları,audio, video, kitabxana fondları, maddi-texniki baza, ali məktəb,qiraət zalı,abonoment, qəzet, jurnal,dərslik və dərs vəsaiti, proqram, metodiki göstərişlər, jurnal, referatlar, elektron kitab, “Səyyar Kitabxana”, kompyüterləşdirilmə, elektron versiya, ADBTİA, bədən tərbiyəsi, idman.

XXI əsrdə mədəniyyətə müasir baxışlar sistemi formalaşıb. Artıq keçid dövrünün çətinlikləri arxada qalıb. Son illər quruculuq sahəsində gələcəyin inkişaf yolunu işıqlandıran, onun inkişaf istiqamətini, məqsəd və vəzifələrini müəyyənləşdirən proqram xarakterli bir çox sənədlər qəbul edilib. Bu sənədlər içərisində Azərbaycanda ilk dəfə Ulu Öndər Heydər Əliyevin imzaladığı 12 mart 1999-cu il Fərmanına əsasən “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra müasir dövrlə səsləşən, kitabxana-informasiya sahəsində mövcud problemlərin sistemli həllinə başlanmışdır [5]. Bu qanunda Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələblərini, kitabxanaların maliyyələşdirilmə mənbələrini, kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir.

Kitabxana insanların informasiya tələbatını ödəmək üçün dünya biliklərinə açılan pəncərə, mədəni dəyərlərin mühafizəsini təmin edən və nəsillərdən – nəsillərə çatdıran bir elm müəssisəsidir.

Kitabxanaların yaradılmasında zəmanəsinin ağıllı hökmdar və ziyalılarının xüsusi rolu olmuşdur. Belə ki, orta əsrlərdə Nəsrəddin Tusinin rəhbərlik etdiyi Marağa rəsədxanasında 1258-1261-ci illərdə fəaliyyət göstərmiş kitabxana Azərbaycanın məşhur elmi kitabxanalarından sayılırdı. Səfəvi hökmdarı I Şah İsmayıl tərəfindən yaradılmış Təbriz Saray Kitabxanasında Şərqin böyük klassiklərinin əsərləri mühafizə olunurdu [4].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2007-ci il aprelin 21-də "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılmasına, maddi-texniki bazasının möhkəmləndirilməsinə, müasir informasiya texnalogiyaları ilə təchizatına dair Sərəncam

imzalamışdır. Bu bir daha kitabxanaların dövlət qayğısı ilə əhatə olunduğunu gostərir [10].

Məsələyə bu baxımdan yanaşdıqda idmançı gənclərin mütaliəyə marağın artırılmasında kitabxananın rolunugeniş şəkildə araşdırmaq və nəticələrini qiymətləndirmək mühüm əhəmiyyət və aktuallıq kəsb edir[1].

Hər bir ölkədə elmin, təhsilin, incəsənətin, mədəniyyətin inkişafında və təbliğində kitabın rolu əvəzsizdir. Kitab xalqın mənəvi sərvətidir, onun tarixidir. Bu sərvəti gələcək nəsillər üçün qoruyub saxlayan, bəşəriyyətin sənəd yaddaşı sayılan kitabların və digər çap əsərlərinin, məlumat daşıyıcılarının istifadəsini təşkil edən, biliklərin yayılmasını həyata keçirən kitabxanalar insanların intellektual və peşə səviyyəsinin yüksəlməsində, elmin və texnikanın tərəqqisində müstəsna rol oynayır.

Bu baxımdan Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) kitabxanası respublikanın bədən tərbiyəsi və idman sahəsində zəngin ali məktəb kitabxanalarından biridır. ADBTİA-sı Zaqafqaziyada ali bədən tərbiyəsi kadrları hazırlayan ilk tədris ocağı olmuşdur. 1936-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu kimi yenidən qurulduqdan sonra onun həyatında yeni dövr başlanır və o vaxtdan ADBTİA-nın nəzdində kitabxana fəaliyyətə başlayır. İnstitut yarandığı ilk dövrdə ana dilində dərsliklər çatışmırdı. Kitabxanada 1930-cu ildən başlayaraq idman qəzet və jurnalları saxlanılır. Akademiyanın müəllimləri 1953-cü ildən dərsliklər yazmağa başlamışlar [7,9].

1946-cı ildə kitabxananın fondunda - 13.053; 1950-1972-ci illərdə - 44.359; 1974-1980-cı illərdə - 52.673; 1980-1987-ci illərdə - 45.653 kitab mövcud idi. 1987-1990-cı illərdə isə – 4036 kitab olub. 2014-cü ildə 3677 oxucusu olan kitabxanada 3 fond, 4 şöbə və 2 bölmə fəaliyyət göstərib [6,7].

ADBTİA-nın kitabxanası yerli kitab mağazaları və əsasən kitabxana kollektorunun fondu hesabına zənginləşir.2014-cü il statistikasına əsasən, kitabxanadan 2920 tələbə, 220 professor-müəllim heyəti, 350 digər əməkdaş istifadə edib. 1954-1955-ci tədris ilində kitabxanada kitabların sayı 28885 idisə, 2005-2006-cı tədris ilində 200 000 olmuşdur [6].

2015-ci ilə kimi kitabxanada 204.093 nüsxə kitab olmuşdur (Azərbaycan, rus, ingilis və b. dillərdə) [2].Kitabxananın ümumi sahəsi 384,86 m2-dir (2015).

Abonementdə Azərbaycan və rus bölmələri fəaliyyət göstərir. Qiraət zalında 70 yer oxuculara xidmət edir, zalın öz yardımçı fondu da var. Bu fond əsas məlumat xarakterli ədəbiyyatdan, dərsliklərdən, əlyazmalardan, qəzet və jurnallardan və s. ibarətdir.Tədris ilinin əvvəlində I kurs tələbələri qısa müddətdə əvvəlcədən hazırlanmış dərsliklərlə təmin olunur.

I kurs tələbələri üçün kitab sərgiləri təşkil edilir. Bu sərgilərdə əlavə proqram, metodiki göstərişlər və s. köməkçi ədəbiyyatdan təşkil edilir.
Xidmətdə qiyabi şöbə tələbələrinə xüsusi diqqət yetirilir. Onlar üçün tövsiyə xarakterli sərgilər, idman sahəsində çıxan yeni ədəbiyyatdan sərgilər təşkil edilir. Kurs semestri üçün kitab, jurnal və referatlar seçilir, təhsildə onlara kömək edir.

Fondun tədbiq edilməsi üçün kitabxanada açıq rəf üsulundan istifadə olunur. Fondun mühafizəsi məqsədilə kitabxanada cırılmış dərsliklər akademiyanın mətbəəsinin köməyilə cildlənmiş və fonda qaytarılmışdır. Borclu oxucularla mübarizə işi davam etdirilimişdir. Kitabxanaya borcu olan müəllimlərin siyahısı təşkil edilib kafedra müdirinə verilmişdir.

Dərsliklərə abonementdə yer verilmişdir. Rus dilində bədii ədəbiyyat üçün ayrıca otaq ayrılmışdır. Bunun nəticəsində xeyli boşalmış və yerdə olan kitablar rəflərə düzülmüşdür. Ayda bir dəfə keçirilən sanitar günlərində kitab fondralı tozdan təmizlənir, yararsız hala düşmüş kitablar bərpa olmaq üçün fonddan çıxarılır.

Kitabxananın zəngin qəzet və jurnal fondu fəaliyyət göstərir.. Kitabxana arası abonement vasitəsilə oxucularımız üçün 85 kitab alınır[2].

Kitabxananın qiraət zalında «20 yanvar», «Xocalı faciəsi», «8 mart», « Novruz

bayramı», «Bilik günü», «Müəllim günü», «Dövlət müstəqilliyi günü» və «Dünya çempionları» mövzusunda sərgilər təşkil edilir. Kitabxanada «Yeni kitablar», «Silaha sarıl ey vətən oğlu», «Müstəqil Azərbaycan», «Vətənin igid oğlanları», «Tarixə düşmüş müstəsna insan» kimi daimi sərgilər fəaliyyət göstərir. Sessiya müddətində köməkçi ədəbiyyatlardan və dərsliklərdən ibarət sərgilər təşkil olunur.

Kitabxanada ixtisaslaşmış yeni oxu zalı (dövri mətbuat) açılmış, otaqların çoxu təmir olunmuş, kitabxana yeni rəflərlə və avadanlıqlarla təmin olunmuşdur (2014).

Akademiyanın yeni rektoru Fuad Hacı oğlu Hacıyevin fəaliyyəti nəticəsində (23.XII.2015) qısa müddətdə akademiyanın maddi-texniki bazası əhəmiyyətli dərəcədə dəyişilmiş, tədris yüksək səviyyədə təşkil olunmuş, tələbələrin dərsə davamiyyəti artmış, ən başlıcası isə rektorun Daxili İntizam Qaydalarının təsdiq edilməsi haqqında 11 fevral 2016-cı il tarixli S-08 əmrinə əsasən təlim-tərbiyə prosesinin səviyyəsi yüksəlmişdir.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının qarşısında qoyulan böyük vəzifələrdən və təhsil islahatlarının dünya standartlarına uyğunlaşdırılması zərurətindən irəli gələrək hal-hazırda akademiyada yenidənqurma və təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində müvafiq işlər aparılır. 2016/2017-ci tədris illərində yeni tədris laboratoriyaları, elektron kitabxana, tədris proqramlarının təkmilləşdirilməsi, yerli və xarici əmək bazarında rəqabət qabiliyyətli mütəxəssislərin hazırlanması məqsədi ilə tədris bazasının gücləndirilməsi, distant və onlayn təhsilin, həmçinin İKT-nin geniş tətbiq olunması, yerli və beynəlxalq donor təşkilatların axtarılması, müvafiq xarici tədris müəssisələri ilə ikili tədrisin və qarşılıqlı proqramların təşkili, tələbə və professor-müəllim mübadiləsi, elmi-tədqiqat işlərinin aparılması, idman təhsili sahəsində yeni ixtisaslaşmaların və onlara müvafiq kafedraların yaradılması istiqamətində bir sıra işlər görülmüşdür.

Təhsil prosesinin keyfiyyətinin artırılması, eləcə də rəqəmsal resursların istifadəsinin genişləndirilməsi çərçivəsində tam funksional elektron kitabxana yaradılmışdır. Yaradılan elektron və rəqəmsal tədris materialları və metodiki resursların təhlükəsiz istifadəsi, həmçinin akademiyanın idarə olunmasında tələb olunan bütün məlumatların yerləşdirilməsi üçün xüsusi server alınmışdır.

"Azərbaycan Respublikasının Təhsil haqqında qanunu”, "Kitabxana işi haqqında” qanunu, Azərbaycan Respublikası dövlət və hökumət sənədlərini, Təhsil Nazirliyinin əmr, sərəncam və normativ sənədləri, həmçinin, AR-da kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramını əldə əsas tutaraq, kitabxananın müasir reytinqli kitabxanalar sırasında fəaliyyət göstərməsi istiqamətində işlər aparılır [11,12].

XXI əsrin informasiya texnologiyalarının xarakterik inkişaf istiqamətləri içərisində müxtəlif növlü, tipli və məzmunlu sənədləri mühafizə edən elektron informasiya daşıyıcılarının hazırlanması, sistemləşdirilməsi, mühafizəsi və şəbəkə rejimində uzaq məsafədən istifadəsi vacib yer tutur. Bütün bu istiqamətlər kompleks şəkildə elektron kitabxanaların yaradılmasında və elektron kitabxana-informasiya təminatının təşkilində ifadə olunur.

"Kitabxananın kompüterləşdirilməsi" haqqinda 1999-cu ildə Təhsil Nazirliyi qərar imzalamışdır [5]. Bunu nəzərə alaraq, 2015-ci ildən, ilk dəfə olaraq, ADBTİA-nın kitabxanasında elektron kataloqun (EK) yaradılmasına başlanmışdır. Akademiyanın kitabxanasının bazası əsasında yaradılan bu laboratoriyanın məqsədi akademiyanın kitabxana-informasiya fəaliyyətində bütün kitabxana proseslərinin mərhələlərlə kompüterləşdirilməsi üçün yeni informasiya texnologiyalarının tətbiqi ilə bağlı nəzəri və təşkilati məsələlərlə, problemlərlə işləməkdir. İlkin mərhələdə kitabxanada qorunan elmi, tədris və digər ədəbiyyatlardan ibarət milli kitab fondunun elektron kataloqu, verilənlər bazası yaradılmışdır. Kitabxananın Azərbaycan dilində olan fondu tam elektron kataloqa daxil edilmişdir və bu proses hal-hazırda davam etdirilir.

Kitabxanada Azəbaycan, rus və xarici

dillərdə olan dövri nəşrlər, dissertasiya və nadir kitablar da elektron kataloqa daxil edilmişdir. Bu prosses İRBİS proqramı əsasında həyata keçirilir. Elektron kataloq beynəlxalq kompyuter şəbəkəsi vasitəsi ilə oxuculara dünyanın istənilən nöqtəsində xidmət göstərməyə imkan verir.

Gənclər və İdman naziri Azad Rəhimov aparılan yenidənqurma işləri və islahatlardan sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında olarkən demişdir: "Sözün əsl mənasında qısa müddət ərzində akademiyada çox böyük işlər görülüb. Burada elektron tədris materiallarının təhlükəsiz istifadəsi üçün, həmçinin akademiyanın idarə olunmasında tələb olunan bütün məlumatların yerləşdirilməsi üçün xüsusi server alınıb. Eyni zamanda, Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının tövsiyəsi ilə tədrisin və imtahanların daha effektiv olması üçün "Online University" sistemi qurulmuşdur. Bu proqram tələbələrin biliklərinin həm semestr zamanı, həm imtahan sessiyası zamanı qiymətləndirilməsində tam şəffaflığa nail olmaq imkanını yaradır" [2].

2016-cı il yanvar ayından akademiya kitabxanasının avtomatlaşdırılması istiqamətində işlərə başlanmışdır.

Kitabxanada aparılan təmir işləri ilə əlaqədar olaraq fond boşaldılmışdır. Otaqlar, fondlar yenidən təmir olunmuşdur. Kitabxana yeni müasir avadanlıqlarla təchiz olunmuşdur.

ADBTİA-nın kitabxanasının fəaliyyəti bütün şöbələrdə mütəşəkkil şəkildə bərpa edilmişdir. Elektron kitabxana sisteminə keçməklə kitabxanada olan bütün işlər avtomatlaşır. Oxuculara xidmətin daha effektiv formada olması üçün kitabların elektron versiyalarının hazırlanması, ixtisasa uyğun olan elektron kitab, məqalə, audio və video materialların axtarışlarına başlanmışdır. Kitabxana idarə etmə sistemi olaraq ABŞ-nın FOLLETT Solution şirkəti tərəfindən hazırlanmış Follett Library Manager sistem proqramı alınmışdır. Dünyanın 60000-dən çox kitabxanasında fəaliyyət göstərən bu proqram kitabxana daxili bütün əməliyyatları avtomatlaşdırır.

Azərbarcan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Kitabxanasının kitab işləmə və kataloqlaşdırma şöbəsi öz ənənələrinə sadiq qalaraq elektron kataloq anlayışı, ənənəvi, əlifba, sistemli, mövzu kataloqlarından və müxtəlif biblioqrafik kartotekalardan geniş istifadə edərək bu 2018/2019-cu tədris illərində alınmış yeni sənədləri elmi və texniki cəhətdən işləyərək kataloqlarda əks etdirmiş və oxucuların istifadəsinəvermişdir.

Azərbarcan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Kitabxanasının kitab işləmə və kataloqlaşdırma şöbəsinin 1950-2019-cu illərdə yeni daxil olan sənədlərin elmi işlənməsi və MAS-laradaxil edilməsi sahəsində gördükləri işlər 1 nömrəli cədvəldə göstərilmişdir.

**ADBTİA-nın kitabxanasının kitab işləmə və kataloqlaşdırma şöbəsinin yeni daxil olan sənədlərin elmi işlənməsi üzrə cədvəl (1950-2019)**

**Cədvəl № 1.**

| İllər | Kitabxananın fondu | Oxucuların ümumi sayı | Kitabxanaya ümumi oxucu gəlişinin miqdarı |
|---|---|---|---|
| 1950-1972 | 44,359 | 11640 | 24240 |
| 1974-1980 | 45,653 | 17784 | 29898 |
| 1980-1987 | 49,355 | 13768 | 36470 |
| 1988-2014 | 225,870 | 58672 | 9240 |
| 2015-2019 | 204,093 | 16420 | 16840 |

**ADBTİA-nınkitabxanasındakı kitabfondunuillər üzrə əksetdirəncədvəl (1946-2019)**

**Cədvəl № 2.**

| 1946 | 1950-1972 | 1974-1980 | 1980-1987 | 1988-2014 | 2015-2019 |
|---|---|---|---|---|---|
| 13.053 | 44,359 | 45,653 | 49,355 | 204,093 | 207,519 |

Azərbarcan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Kitabxanasının kitabişləmə və kataloqlaşdırma şöbəsində 2019-ci ildə (24.04.2019) fonddakı ədəbiyyat 207519-dur,40594-ü Azərbaycan dilində, 166925-i rus dilindədir.Kitabxanın komplektləşdirmə kitab işləmə və kataloqlaşdırma şöbəsi 2019-cu ildə 445 kitab işləmiş, bunlardan 444-ü Azərbaycan dilində, 1-i rus dilində, əlifba kataloquna 63 kartoçka düzülmüş, 5096 adda kitab elektron kataloqa salınmışdır. Kitabişləmə və kataloqlaşdırma şöbəsinə 63 kitab işləmiş, bunlardan 62-si azərbaycan, 1-i rus dillərində, 465-i yazılan oxucuların sayı,465-i qeydiyyatdan çıxan oxucuların sayı,3703-ü oxucu gəlişlərinin sayı, 4210-u xidmət olunmuş oxucuların sayı, kitab verilişinin sayı, 5404-üabonementdən,13436-ı-oxu zalından istıfadə olunmuş,2281-iyardımçı fonndda olan ədəbiyyat,25103-ü oxu zalında olan ədəbiyyat, 18379-u Azərbaycan, 6124-ü rus dilindədir.

Beləliklə, ADBTİA-nın Kitabxanasının kitabişləmə və kataloqlaşdırma şöbəsinin əməkdaşlarının apardığı işlər nəticəsində kitabxananın informasiya sisteminin təkmilləşdirilməsi sahəsində xeyli işlər görmüşdür [2].



Hal-hazırda akademiyanın kitabxanası müasir kitabxanaların tələblərinə cavab verən mədəni, ünsiyyət və informasiya-məlumat vermə, müxtəlif tədbirlərin və sərgilərin keçirilməsi mərkəzinə çevirilmişdir. Bu gün kitabxanaya yalnız kitablar və dövri mətbuat materialları ilə deyil, elektron daşıyıcılar, audio və video materiallar, tam mətnli elektron resursların hazırlanması və işlənməsi üzərində işlər gedir.

Abonomentdə Azərbaycan və rus bölmələri fəaliyyət göstərir. Müəllimlər üçün nəzərdə tutulmuş qiraət zalında 12 yer vardır. Bunlardan 4-ü kompyüterlə təchiz olunmuşdur. Tələbələr üçün nəzərdə tutulmuş qiraət zalında isə 48 yerin 8-i kompyüterlə təchiz olunmuşdur. Zalın öz yardımçı fondu var. Bu fond əsas məlumat xarakterli ədəbiyyatdan ibarətdir. Bundan əlavə kiatbxana üçün əlavə olaraq 2 müzakirə otağı da oxucuların ixtiyarına verilmişdir.

Kitabxana 2015-ci il üçün 11 adda qəzet, 6 adda jurnala abunə olmuşdur. Kitabxana üçün müəlliflərdən və nəşriyyatlardan 3189 ədəbiyyat alınmışdır. Bunlardan 2600 ədədi dərslik, 589 ədədi isə elmi ədəbiyyatdır. Kitabxanada köhnə və öz əhəmiyyətini itirmiş ədəbiyyatın silinməsi işi davam etdirilir [2].

Kitabxana əməkdaşları üçün akademiyada kurslar təşkil olunub. Keçirilən görüşlərə əsasən əməkdaşların fəallığı özünü göstərir. Kursda elektron kitabxana və idarəetmə proqramı haqqında məlumatlar verilir. Kurslar 2017 - ci il yanvar ayında başa çatmışdır.

Bundan əlavə kitabxanada kütləvi tədbirlərin keşirilməsi üçün də şərait yaradılmışdır. Kitabxananın texniki şöbəsində təmirdən sonra fonddan boşaldılmış və il ərzində alınan kitablar operativ işlənib fondda rəflərə düzülmüşdür. Şöbəyə sentyabr ayında 380 nüsxə kitab (375 nüsxəsi Azərbaycan dilində, 5 nüsxəsi rus dilində) daxil olmuşdur. Kitablar işlənib fonda təhvil verilib. 7 akt kitabların silinməsinə görə hazırlanıb. 1906 nüsxə inventar kitabından çıxarılıb. Dekabr ayında oxucular tərəfindən itirilmiş kitablar inventar kitabına salınıb [2].

Fond il ərzində bir neçə dəfə yoxlanılır. Cırılıb köhnəlmiş, məzmunca öz əhəmiyyətini itirmiş ədəbiyyatın fonddan çıxarılması aktlaşdırılır və kitabxana direktoruna təhvil verilir. Kitabxananın kitab fondu tələb olunan dərslik və dərs vəsaitləri, metodik vəsaitlər, konfrans materialları, jurnallar, elektron resurslar və s. ilə təmin olunaraq zənginləşdirilir.

Kitabxanaya təmir dövründən sonra sentyabr ayından 3965 oxucu qeydiyyatdan keçib. Gün ərzində kitabxanadan 250-300 oxucu istifadə edir. Ay ərzində 1000-ə yaxın kitab verilişi var. Kitabxananın fondunda təmirə qədərki dövrdə 225870 nüsxə ədəbiyyat vardır. Bunun 11000-i elmi, 12968-i tədris, 58700-ü bədii, 104956-sı idman, 25635-i ictimai siyasi, 1121-i xarici, 1397-si mübadilə ədəbiyyatlarıdır [2]. Kitabxananın profilinə uyğun olaraq fondda dərsliklər və dərs vasitələri xüsusi yer tutur.

Hazırda kitabxananın elmi, tədris və bədii ədəbiyyatdan ibarət 1 abonoment şöbəsi, 1 texniki şöbəsi, 58 oturacaq yeri olan 2 qiraət zalı fəaliyyət göstərir.

2015-ci tədris ilində tələbə və müəllim heyətinə oxucu olaraq 194880 nüsxə kitab verilmişdir. Kitabxanada kütləvi tədbirlərin keçirilməsi əvvəlcədən planlaşdırılır. Kitabxanada yubiley və tarixi günlərin qeyd olunması üçün bir sıra tədbirlər hazırlayıb həyata keçirilmişdir. Kitabxananın oxu zalında oxuculara geniş şəkildə dolğun məlumatlar verilir.

Son 3 ildə akademiyanın kitabxanasının qiraət zalları müasir standartlara uyğun əsaslı təmir edilmiş, yeni, rahat mebel avadanlıqları, kompüter texnologiyaları alınmışdır.

İnsanların mütailəyə marağını yönəltmək üçün Rumıniya hökuməti əhalinin kitab oxuması üçün maraqlı bir layihəyə imza atıb. Kluj-Napoka şəhər merinin yeni layihəsinə əsasən, yay mövsümündə nəqliyyatda kitab oxuyan sərnişinlərdən gediş haqqı alınmayacaq. Şəhərdə əhalinin kitaba olan marağını artırmaq təkcə bu təşəbbüslə bitmir. Çünki "Bookface" şirkəti də əhalini

kitab oxumağa təşviq etmək üçün maraqlı addım atıb. Şirkətin şərtlərində bildirilir ki, "Facebook" hesabına kitabla çəkilmiş şəklini yerləşdirən hər bir sosial şəbəkə istifadəçisi ictimai iaşə obyektləri, kitab mağazaları və stomatoloji kabinetlərə güzəştlər əldə edəcək. Hər il aprelin 23-də Kluj-Napoke şəhərində Ümumdünya Kitab Günü keçirilir. Həmin gün əlində kitab olan hər bir şəxs Nəbatat bağını pulsuz ziyarət edə bilər.

Bu gün gənclik daha çox elektron kitablara üstünlük verir. Ona görə də kitabların, yazılı ədəbiyyatın təbliğata çox ehtiyacı var. Bu işə orta məktəbdən başlanmalıdır. Məsələn, Yaponiyada hər şagird həftədə bir dəfə kitabxanada olmalıdır. Bu, onun dərs balına təsir edir. Bu isə onların kitaba marağında rol oynayır.

Qeyd edək ki, kitabın oxunması üçün bizim ölkəmizdə də müxtəlif tədbirlər həyata keçirilir. Hazırda V Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının təşkili bu istiqamətdə atılan addımlardan biridir. Eləcə də, Təhsil Nazirliyinin bugünlərdə "Oxumağı vərdişə çevirək!" şüarı ilə keçirdiyi aksiya da maraqlıdır. "Bir vaxtlar kitab əlimizdən düşməzdi. Hara gedərdiksə, yanımızda mütləq oxumaq üçün kitab olardı"- fikirlərindən çıxış edərək cəmiyyətin diqqətini mütailəyə yönəltmək məqsədi daşıyan aksiyaya dəstək olanlar çoxdur.

Bu gün, çox təəssüf ki, kitab oxumaq mədəniyyəti cavanlar arasında az müşahidə olunur və unudulmuşdur. Halbuki, bu gözəl əməlin çox sayda faydaları vardır ki, sizı onunla tanış edirik: kitab oxumaq insan ömrünü uzada bilər. 2016-cı ildə mütəxəssislər tərəfindən aparılan tədqiqat göstərmişdir ki, o kəslər ki, kitab oxumağı sevirlər, onlarda vaxtsız ölüm riski başqalarından 20 faiz daha azdır. Bu gün həkimlər və mütəxəssislər bu qənaətə gəliblər ki, kitab oxumaq insanın cismi və ruhi xəstəliklərinin əlamətlərini azaldar. Qorxu, yuxusuzluq, çəkinin artması və xəstəxanalarda yatmaqdan qaynaqlanan iztirabları rahatlıqla aradan qaldıra bilir. Yatmazdan əvvəl kitab oxumaq adəti insanın rahat yatmasına şərait yaradar. Əvvəl bir-iki səhifə oxumağa çalışın və sonrakı günlərdə bu adətin yarandığını hiss edəcəksiniz. Mütəxəssislər deyirlər ki, oxuduğunuz kitab kağızdan olmalıdır, elektronik kitablar olmamalıdır. Tədqiqatlar göstərir ki, uşaqlar öyrəndikləri sözlərin təqribən 15 faizini mütailə vasitəsi ilə əldə edirlər. O uşaqlar ki, daha çox mütailə edirlər, onların lüğət dairəsi də geniş olur (Tebyan). İnsan oxuduğu dastan və hekayələrdə həmin mövzuya qapılaraq, personajların yaşadıqlarını hiss edir, yaşayır. Ona görə də mütailə etmək başqaları ilə həmdərd olmaq hissini gücləndirir. Tədqiqatlar göstərir ki, çay içmək 54 faiz, piyada yerimək 42 faiz stressi azaldır. Ancaq kitab mütailə etmək isə stressi 68 faiz azalda bilir. Biz kitab oxuyan zaman müxtəlif təbəqələrə malik olan insanların hissləri ilə tanış oluruq. Bu da ictimai əlaqələrdə bizə çox yardım edir. Həmin təcrübəyə istinadən, cəmiyyətdə rahat şəkildə əlaqə qura bilərik [3].

Son illər ərzində bu sahədə bir sıra mühüm sənədlər qəbul edilib. Ölkə Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlarına əsasən ölkənin bütün kitabxanalarına latın qrafikası ilə çapdan çıxmış nəşrlər hədiyyə edilmişdir [12]. Həmçinin "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", eləcə də, Bakı şəhəri və qəsəbələrinin sosial-iqtisadi inkişafı, rabitə və informasiya texnologiyalarının inkişafı, ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı ilə bağlı proqram sənədlərdə kitabxana-informasiya sahəsinin inkişafı və modernləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulub.

Ölkə başçısı tərəfindən "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiqi bu sahədə köklü dəyişikliklərin həyata keçirilməsinə səbəb

olub. Proqramın reallaşdırılması üzrə Tədbirlər Planının "Kitabxanaların kompyuter və informasiya-proqram təminatı, respublika üzrə kompyuterləşdirilmiş kitabxana-informasiya şəbəkəsinin yaradılması və inkişafı" bölməsinə uyğun olaraq kitabxanaların informasiyalaşdırılması, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işi uğurla həyata keçirilir [12]. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasın İnformasiya Mərkəzi Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işinin daha effektiv həyata keçirilməsində xüsusi səy göstərir. Hər bir ölkədə elmin, təhsilin, incəsənətin, idmanın, mədəniyyətin inkişafında və təbliğində kitabın rolu əvəzsizdir. Kitab xalqın mənəvi sərvətidir, onun tarixidir. Bu sərvəti gələcək nəsillər üçün qoruyub saxlayan, bəşəriyyətin sənəd yaddaşı sayılan kitabların və digər çap əsərlərinin, məlumat daşıyıcılarının istifadəsini təşkil edən, biliklərin yayılmasını həyata keçirən kitabxanalar insanların intellektual və peşə səviyyəsinin yüksəlməsində, elmin və texnikanın tərəqqisində müstəsna rol oynayır. Məşhur hind kitabxanaşünası S.R.Rapqanatan kitabxananı inkişaf edən orqanizm adlandıraraq yazır ki, bir orqanizm kimi kitabxana daim inkişafda olmalı, kitabxana fondu aramsız olaraq yeni kitablarla zənginləşdirilməlidir. Kiçik su hövzələri, göllər ona tökülən çaylardan məhrum olduqda quruduğu kimi, hər hansı bir kitabxana da yeni kitablardan məhrum olarsa, öz elmi və mədəni əhəmiyyətini itirər. Kitabxanaların daim zənginləşməsinin mənəviyyatımızın yüksəlməsində böyük əhəmiyyətinə diqqət çəkən ümummilli lider Heydər Əliyev demişdir: "Kitabxana elə bir yerdir ki, gərək daim onun fondu genişlənsin. Çünki dünya dəyişir, yeni əsərlər, kitablar yaranır. Bunlar insanlara yeni biliklər, yeni məlumat gətirir".

İdman Akademiyasının rektoru Fuad Hacıyevin daxili əmrinə əsasən, 2015-ci ildən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında kitabxana işini tənzimləmək, onların fəaliyyətini müasir tələblər səviyyəsinə çatdırmaq, ədəbiyyatın geniş təbliğini və bu sahədə xidmət işini genişləndirmək üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Belə tədbirlərdən biri də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kitabxanasının yenidən qurulması və burada elektron kitabxananın yaradılmasıdır.



Akademiyanın idman tarixi elmi mərkəzinin kitabxana fondu 2019-cu ildə (fevral ayına qədər) 207.519 nüsxə təşkil etmişdir [2]. Həmçinin kitabxananın fondunda müxtəlif dillərdə olan nadir ədəbiyyat nümunələri saxlanılır. Fondda əsasən bədən tərbiyəsi və idman ədəbiyyatı üstünlük təşkil edir. Bununla yanaşı tibbə, iqtisadiyyata, siyasətə, hüquqa, fəlsəfəyə, statistikaya, tarixə, ədəbiyyatşünaslığa və dilçiliyə dair elmi ədəbiyyat, bədii ədəbiyyat da vardır. Dövri mətbuat fondundan kitabxanaya respublikamızda və digər ölkələrdə çap olunan 12-dən artıq qəzet, 4-dən yuxarı jurnal və digər dövri nəşrlər daxil olur. Kitabxanada

fondun elektron nəşrlərlə komplektləşdirilməsi sahəsinə xüsusi diqqət yetirilir. Bu məqsədlə həm də kitabxanaya daxil olan nəşrlərin elektron versiyasının da mütləq şəkildə olması əsas götürülür. İstər hədiyyə kimi və istərsə də komplektləşdirmə yolu ilə kitabxanaya daxil olan nəşr növlərinin elektron versiyalarının imkan daxilində əldə edilməsi nəzərdə tutulub.

Bədən tərbiyəsi və idmanın təbliği ilə bağlı akademiyanın kitabxanasında həyata keçirdiyi tədbirlərdə başlıca məqsəd sağlam nəsil yetişdirməkdir. Bu zaman işin fiziki tərəfi ilə yanaşı mənəvi tərəfi də ön planda olmalıdır. Məlumdur ki, idmanla məşğul olanların böyük əksəriyyəti gənclərdir və bu sahədə böyük gənclik ordusu cəmləşmişdir. Deməli, idman cəmiyyətin ən aktiv təbəqəsi olan gəncləri öz ətrafına cəmləməklə pis vərdişlərə meyllənməyin qarşısını alır. İnternetin həyatımıza bu qədər sürətlə daxil olduğu, qloballaşmanın mənfi təsirlərindən qorunmağın bu qədər çətin olduğu bir zamanda idmanın təbliğ edilməsi çox aktualdır. Kitabxana işçiləri üçün önəmli məqamlardan biri tələbə-gənclərin uğurlarına, qələbələrinə sevinmək, onun təbliği sahəsində hər cür imkanlardan istifadə etməkdir. Tədbirlərin təşkilində Nərimanov rayonunda fəaliyyət göstərən dövlət orqanları, ictimai birliklər və müxtəlif qurumlar, idmanla bağlı idarə və təşkilatlarla akademiyanın kitabxana işçıləri sıx əlaqə saxlayır və öz köməklərini əsirgəmirlər.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının İdman tarixi elmi mərkəzi tərəfindən hazırlanmış kitabxananın elektron bazasında Heydər Əliyev irsinin tədqiqi, Azərbaycanda bədən tərbiyəsi və idman haqqında qanunlar, sərəncam və fərmanlar (Hüquqi sənədlər toplusu, Bədən tərbiyəsi və idman,1918-2018-cı ıllər), dövlət proqramı, idmanla bağlı rəsmi sənədlər, idmanın tarixi, Olimpiya, dünya və Avropa çempionları və mükafatçıları, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının yaranma tarixi, kitabxananın yaranma tarixi, şəhid idmançılar, milli qəhrəmanlar, generallar, filmlər, fotoqalereya xronoloji ardıcıllıq əsasında düzülmüşdür.

İdmanın təbliği, gənc nəslin sağlam gələcəyinin təmin edilməsi məqsədilə akademiyanın kitabxanasında kütləvi tədbirlərin müxtəlif formalarından istifadə edilir. Bundan başqa, hazırkı şəraitdə kitabxanaların çap imkanlarının həddindən artıq zəiflədiyi bir zamanda ayrı-ayrı görkəmli idmançıların yaradıcılığına, müxtəlif bədən tərbiyəsi və idmana aid ədəbiyyat nümunələrinə həsr olunmuş kiçik formatlı nəşrlər, kiçik tövsiyə biblioqrafik göstəriciləri, çap plakatları idmançıların nailiyyətləri haqqında soraq kitabçaları və s. hazırlamaq mümkun deyil. Ona görə də bədən tərbiyəsi və idmana aid ədəbiyyatın təbliği zamanı təsadüfi hallarda bu üsullara rast gəlmək olur.

Oxucularda vətənpərvərlik hisslərinin aşılanmasında, milli-mənəvi dəyərlərimizin qorunmasında mətbuatdan istifadə edərək bədən tərbiyəsi və idmana aid elmi əsərlərin təbliğat işini daim yaxşılaşdırmaq, onların hər bir oxucuya ən asan yolla çatmasına kömək etmək lazımdır. Bədən tərbiyəsi və idmana aid elmi əsərlərin, idman nailiyyətlərinin təbliğinin ən geniş yayılmış forması KİV-lərlə əlaqədir.

Akademiyanın kitabxanasında KİV-lər hər zaman oxucuların köməyinə çatır. Kitabxanaçı Zəminə Abbasova oxucularla fərdi iş apararkən, kitabxananın işi haqqında məlumat verərkən və kitab tövsiyə edərkən özünün şifahi söhbətinə əlavə olaraq oxucuya çap materialı da təqdim edir. Mətbuatda dərc olunan məlumatlar həm kitabların əyani təbliğatı zamanı sərgiləri tamamlayır, həm də görkəmli idmançılara, Olimpiya çempion və mükafatçılarının həyatına həsr olunmuş gecələrin, idmana aid kitabların icmallarının təşkili zamanı kütləvi işdə istifadə edilir.

Bədən tərbiyəsi və idmanın təbliğində kütləvi tədbirlərin təsiri ilə kitabxanaya yeni-yeni oxucular cəlb edilir. Bu da bədən tərbiyəsi və idmanın təbliğində oxucu-kitabxana əlaqələrinin yüksək səviyyədə

qurulması, istifadəçilərə keyfiyyətli xidmət göstərilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Hazırda kitabxanada 941 istifadəçi elektron formada qeydiyyatdadır. Çalışırıq ki, xidməti vəzifəmizi layiqincə yerinə yetirək, mədəniyyətimizin qorunması və nümayiş etdirilməsində səy və bacarığımızı əsirgəməyək. Ümummilli liderimiz Heydər Əliyevin söylədiyi kimi: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanalara daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir".

Akademiyanın kitabxanası müdiriyyətin məqsədyönlü rəhbərliyi, həmişə axtarışda olan alimlərinin, ali təhsilli mütəxəssislərinin böyük ruh yüksəkliyi ilə çalışması və akademiya rəhbərliyinin sonsuz qayğısı sayəsində 3 il ərzində zəngin ali məktəb kitabxanalırından birinə çevrilmişdir.

Akademiyanın kitabxanası tələbələrin və professor-müəllim heyətinin mədəni və mənəvi mərkəzidir. Kitabxana fondunun zənginliyinə, biblioqrafiya və informasiya işinin nümunəvi təşkilinə, oxuculara yüksək xidmət mədəniyyətinə, yüksək ixtisaslı kadrlarına görə bədən tərbiyəsi və idman sahəsində ali və orta ixtisas məktəb kitabxanalarının metodik mərkəzidir.

ADBTİA-nın müasir kitabxanası şəxsiyyətin formalaşması üçün mədəniyyət fenomenidir. O, yaradılan mədəni sərvətləri və informasiya resurslarını toplayır və qoruyur, eyni zamanda onların istifadəsini və yayımlanmasını təmin edir.

**Tədqiqatın məqsədi:** Tələbə gənclərin mütailəyə marağını artırmaq, kitabın təbliğatı, onların təmənnasız olaraq kitab və elektron kitab vəsaitləri ilə təmin etmək, kitabxanaların elmi və mədəni irsini qorumaq, "Səyyar Kitabxana"nın fəaliyyəti, elmi müəssisələr arasında əməkdaşlığını inkişaf etdirmək, akademiyanın kafedraları və ictimai təşkilatlarla kitabxananın fəaliyyətini əlaqələndirmək, oxucularda vətənpərvərlik hisslərini tərbiyə etmə, fondlarda toplanmış elmi, mədəni, mənəvi irsi təbliğ etməklə, idmançı gənclərin informasiya tələbatının ədəbiyyatla təmin etmək, akademiyanın kitabxana-informasiya fəaliyyətində bütün kitabxana proseslərinin mərhələlərlə kompüterləşdirilməsi üçün yeni informasiya texnologiyalarının tətbiqi ilə bağlı nəzəri və təşkilati məsələləri, problemləri işləməkdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Qarşıya qoyulan məqsədi həyata keçirməklə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil prosesinin keyfiyyətinin artırılması, eləcə də rəqəmsal resursların istifadəsi genişləndirilmiş çərçivədə tam funksional elektron kitabxana yaratmaq, informasiya texnologiyalarının xarakterik inkişaf istiqamətlərinin inkişaf etdirilməsinə imkan yaranır, habelə bədən tərbiyəsi və idman sahəsində yüksək dərəcəli kadrların hazırlığınınmüasir elmi bilik sistemində yeri, elmi quruluşu və bütövlükdə elmi sistemi aydınlaşdırılır.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki,Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasınınkitabxanası oxuculara xidmətin daha effektiv formada olması üçün kitabların elektron versiyalarının hazırlanması, ixtisasa uyğun olan elektron kitab, məqalə, audio və video materialların təşkilinin inkişaf tendensiyası elmi şəkildə araşdırılmış, onun məzmunu müəyyənləşdirilmiş və yeni modelinin forma və metodlar kompleksi tapılmışdır.

Tədqiqat prosesində belə **nəticəyə** gəlmək olar ki, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kompleks şəkildə elektron kitabxanaların yaradılmasında və elektron kitabxana-informasiya təminat işlərinin təşkili problemi, habelə idmançı gənclərinmütailəyə marağının artırılmasında kitabxananın rolu tədqiq olunur. Eləcə də, dünya kitabxanalarının qabaqcıl iş təcrübəsi öyrənilərək tətbiq olunmalıdır. Bununla yanaşı, inkişaf etmiş ölkələrin mütəxəssislərinin cəlb edilməsi də vacib tərəflərdəndir.

Düzgün elmi əsaslarla təşkil olunan kitabxanaçıların fasiləsiz təhsili kitabxanalarda kadr potensialının artması, yeni xidmət növlərinin meydana çıxmasına

gətirib çıxarır. Bu da özlüyündə kitabxanalara oxucu axınınınartması deməkdir.

**Ədəbiyyat**

1. Abdullayeva A. Mütailə mədəniyyəti və kitabxana xidməti (2010-2016). Bakı, M.F.Axundov adına AzərbaycanMilli Kitabxanasının mətbəəsi, 2017, 40 s.
2. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında 2019-cuildə aparılmış kitabxana işləri haqqında hesabat(Əlyazmasında).
3. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında 2018-ci ildə aparılmış beynəlxalq əlaqələr haqqında hesabat(Əlyazmasında).
4. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. Ihissə. Bakı Universiteti Nəşriyyatı, 2004. –328s.
5. "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan RespublikasıPrezidentinin Fərmanı ("Azərbaycan" qəzeti, 12 mart 1999-cu il, № 115)
6. Quliyev D.Q. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası (85- illik salnamə). Bakı, Letterpress,2015,119s.

**İngilis və başqa dillərdə**

7. GuliyevD.G. Aout the Histoqy of the scientific Researches Development of Azerbaijan State Academy of Physical Culture and Sport. Neoı erklnma kaı koınqnıa. Teüxos 3 . Noeubpıos, 2009, s.78-86
8. GuliyevD.G.Analysis and scientific-methodical basis of the performances of Azerbaijani athletes in Rio-De-Janeiro summer Olympics. ISSN 2413-1865. Mınısterstvo osvıti ı nauki Ukraini Xersonsğkiy Derjavniy Unıversitet. 100 Rokil. Xersonsğkomu Dezjavnomu Unıversitetu. Zvırnik naukovix praüğ redaqoıçnı nauki. Vipusk LXXV Tom 1. Xerson- 2017. c. 33-37
9. GuliyevD.G. Several pedagogıcal recommendatıons on organızatıon of "İnderendent work" of the students on free stjle, greek-Roman, East wrestlıng and handtohand combat srecıalıtıes. Хуманитарни Валкански изследвания. ISSN 2603-4859, 2019, Том 3 №. 2, (4) 22−27, с . 22−26

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu**

10. 16 iyun 2007-ci il tarixli 390-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6 maddə 596)
11. 04 mart 2016-cı il tarixli 174-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti, 19 mart 2016-cı il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 430)
12. 15 fevral 2011-ci il tarixli 381 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 85) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı".

## Роль библиотеки в повышении интереса к чтению у молодых спортсменов

(на основе опыта библиотеки АзГАФКС)

*д.п.н. проф. Дильгам Гулиев*
mr.quliyev.d@mail.ru
*Азербайджанская Государственная Академия Физического Воспитания и Спорта*

**Аннотация:** В данной статье, были освещены основные принципы государственной политики в сфере работы библиотеки в Азербайджанской Республике, общие основы работы библиотеки и библиотечной системы,

формирование библиотечных фондов и требования безопасности, принципы международного сотрудничества в работе библиотеки, роль библиотеки в повышении интереса к чтению у спортсменов-молодежи. Регулирование работы библиотеки в Азербайджанской Государственной Академии Физического Воспитания и Спорта, организация их деятельности в соответствие с современными требованиями, повышение качества реконструкции Академии и образования, новые учебные лаборатории, электронная библиотека, усовершенстввование учебных программ, библиотека Академии, отвечающая требованиям всех современных библиотек, проведение различных мероприятий и выставок, повышение качества учебного процесса, а также информация о полной функциональной электронной библиотеке в рамках расширения использования цифровых ресурсов и другие проблемы нашли свое решение в данной статье.

**Ключевые слова:** библиотека, информационно-коммуникационные технологии, аудио,
видео, библиотечные фонды, материально-техническая база, высшее учебное заведение,
читательный зал, абонемент, газета, журнал, учебник и учебное пособие, программа,
методические указания, рефераты, электронная книга, “Мобильная библиотека”,
компьютеризация, электронная версия, АГАФВС, физическая культура, спорт.

## The role of the library in increasing the interest in reading among young athletes

*(based on the experience of library)*
*d.p.s. prof. Dilgam Guliyev*
*mr.quliyev.d@mail.ru*
*Azerbaijan State Academy of Physical Education and Sport*

**Annotation**: The main principles of state policy in the field of the library in Azerbaijan Republic, the general principles of the library and the library system, the formation of library funds and safety requirements, the principles of international cooperation in the sphere of library activity, the role of the library in increasing the interest in reading among young athletes were highlighted in this article. Regulation of the activity of the library in Azerbaijan State Academy of Physical Training and Sports, organization of their activities in accordance with modern requirements, improving the quality of reconstruction of the Academy and education, new educational laboratories, an electronic library, improving curricula, the library of the Academy that meets the requirements of all modern libraries, conducting various events and exhibitions, improving the quality of the educational process, as well as information about the full functional electronic library in the framework of expansion of the use of digital resources and other problems have been solved in this article

**Key words:** library, information and communication technologies, audio, video, library funds, material and technical base, higher education institution, reading room, subscriber, newspaper, magazine, textbook and study guide, program, guidelines, abstracts, electronic book, “Mobile library”, computerization, electronic version, ASAPTS, physical culture, sport.